*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 mart 2016-cı il № 21 (2036) Qiyməti 25 qəpik


## Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik



Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə bahar əhval-ruhiyyəsi, cansağlığı və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan torpağında çox qədim kökləri olan, uzaq keçmişlərdən xalqımızın mənəvi həyatının ən dərin qatlarına nüfuz edən və zamanın sınaqlarından günümüzədək uğurla çıxan Novruz bayramı ənənəvi dəyərlər sistemimizin təşəkkülündə müstəsna əhəmiyyətə malikdir. Əcdadlarımızın müqəddəs yadigarı kimi bu bayram təbiətin ilahi nizamına ehtiramın aydın ifadəsidir. Zəngin mənəviyyatımız və düşüncə dünyamız, yüksək əxlaqi keyfiyyətlərimiz və həyata nikbin baxışımız Novruz mərasimlərimizdə bütün rəngarəngliyi ilə dolğun təcəssümünü tapmışdır. İctimai-siyasi və ədəbi-mədəni fikir tariximizin görkəmli şəxsiyyətləri milli varlığımızın ayrılmaz parçası saydıqları bu bayrama həmişə xüsusi münasibət bəsləmişlər.

Yaz bayramı tükənməz yeniləşdirici gücü sayəsində ən çətin vaxtlarımızda belə gələcəyə inamımızı zəifləməyə qoymamışdır. O, Azərbaycan xalqının özünüdərk məfkurəsini qorumaqla ötən əsrin sonlarına doğru milli dövlətçilik idealımıza yenidən qovuşmağımızda mühüm rol oynamışdır. Novruzun rəsmi bayram statusu alması və artıq iyirmi beşinci baharını yaşayan Odlar diyarında ümumxalq bayramı səviyyəsində geniş qeyd olunması müstəqilliyimizin nailiyyətlərindəndir. Sivilizasiyaların qovuşuğundakı multikultural mühitli ölkəmizin müxtəlif mədəniyyətlərə mənsub insanlarını daim ünsiyyətə çağıraraq xoş münasibətlər bərqərar etmiş və dostluq, qardaşlıq əlaqələrini daha da gücləndirmiş Novruz bayramında tolerantlığın həqiqi təntənəsi vardır.

Bahar bayramının ali bəşəri duyğuların daşıyıcısı olaraq YUNESKO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil edilməsi hər bir azərbaycanlının qəlbini iftixar hissi ilə doldurur. Mən azərbaycançılıq məfkurəsi işığında sıx birləşməklə bayramı ölkəmizin hüdudlarından kənarda bizimlə bərabər qarşılayan soydaşlarımıza firavanlıq, əmin-amanlıq və ruh yüksəkliyi arzu edirəm.

Həmrəyliyimizin rəmzi bu bayram qoy hər evə xoş ovqat gətirsin, hər ocağa bol sevinc, ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 16 mart 2016-cı il.

### Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## Bizim gücümüz birliyimizdədir

*Azərbaycan Prezidenti İlham Əliyevin martın 15-də Türkiyəyə işgüzar səfəri və Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclasında iştirakı ölkə və dünya kütləvi informasiya vasitələrinin geniş diqqətini cəlb edib. Dövlət başçısının qardaş ölkəyə səfərini Ermənistan mediası da özünəməxsus qısqanclıqla işıqlandırıb.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə martın 15-də Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V Ankara iclasında Türkiyə Prezidenti çıxış edərək terrorçu-intiharçının törətdiyi hücumla bağlı göstərdiyi həmrəyliyə görə dövlətimizin başçısına təşəkkür etdi: "Mən bu səfəri, bu gün burada Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasını həm bu hadisə ilə bağlı birlikdə gücümüzü, həmrəyliyimizi, həm də bütün terror hücumlarına qarşı birlikdə olduğumuzu milli və beynəlxalq miqyasda göstərmək baxımından çox yüksək qiymətləndirirəm. Bu gün Siz mərhum Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını yaşadaraq bunu açıq-aşkar nümayiş etdirdiniz."

Azərbaycan Prezidenti İlham Əliyev qardaş ölkənin vətəndaşlarına qarşı törədilmiş dəhşətli terror aktını pisləyərək dedi: "Azərbaycan xalqı həmişə olduğu kimi, bu gün də türk xalqı ilə birlikdədir. Biz həmrəyik, dostuq, qardaşıq".

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasından sonra hər iki dövlət rəhbərinin iştirakı ilə bir sıra mühüm sənədlərin imzalanma mərasimi oldu. "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclasının Protokolu"nu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan imzaladılar.

Sənədlərin imzalanması mərasimindən sonra dövlət başçılarının kütləvi informasiya vasitələri nümayəndələri üçün səsləndirdikləri bəyanatlar bir daha sübut etdi ki, iki ölkə arasında münasibətlər, doğrudan da, strateji müttəfiqlik xarakteri daşıyır.

Türkiyə və Azərbaycanı dünya miqyasında bir-birinə ən yaxın olan ölkələr adlandıran Prezident İlham Əliyev əlaqələrimizin təməlində xalqlarımızın birliyi, qardaşlığının dayandığını və Türkiyə ilə Azərbaycan arasında dostluğun, qardaşlığın möhtəşəm binasının bu təməl üzərində inşa edildiyini vurğuladı: "Nə qədər Türkiyə güclü olarsa, bir o qədər biz güclü olacağıq. Bizim gücümüz birliyimizdədir və bütün beynəlxalq məsələlərdə biz bir yerdəyik, bir-birimizin yanındayıq."

Jurnalistlər qarşısında verdiyi bəyanatda Azərbaycan rəhbəri iki dövlət arasında günügündən artan və qardaş ölkələrin Silahlı Qüvvələrinin güc və qüdrətini möhkəmlədən hərbi əməkdaşlığa da öz münasibətini bildirdi: "Bizi hərbi əməkdaşlıq birləşdirir. Bizim hərbçilərimiz bu yaxınlarda birgə təlimlər keçirmişlər. Bu da gözəl ənənəyə çevrilmişdir. Hərbi-texniki sahədə əməkdaşlıq dərinləşir. Biz artıq Türkiyədən müxtəlif hərbi texnika, silahlar alırıq. Türkiyənin bu sahədəki uğurları, əlbəttə ki, Azərbaycanın da müdafiə potensialını gücləndirir."

Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının V iclası zamanı dəfələrlə xatırlanmış ümummilli lider Heydər Əliyevin vaxtilə iki qardaş ölkələr arasında münasibətlər barəsində söylədiyi "Bir millət, iki dövlət" kəlamı həmin gün bir daha öz gerçək təsdiqini tapdı. Səmimi qardaşlıq üzərində qurulmuş dövlətlərarası əlaqələr isə heç zaman pozulmaz.

**AZƏRTAC-ın materialları əsasında**



Ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi Silahlı Qüvvələrdə dərindən öyrənilir

3-cü səhifədə



"TURAZ Şahini - 2016" təlimləri davam edir

4-cü səhifədə



Qədəmlərin mübarək, ulu Novruz!

5-ci səhifədə



"Ordu xalqın, xalq ordunun dayağı"

6-cı səhifədə

AZƏRBAYCAN ORDUSU

## Novruz bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə

# Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə ən xoş arzularımı bildirirəm.

Qədim tarixə və zəngin ənənələrə malik olan Novruz bayramı əsrlərdir ki, xalqımız tərəfindən böyük coşqu ilə qarşılanır. Milli birlik, həmrəylik, xeyirxahlıq, insansevərlik, dostluq və qardaşlıq kimi yüksək əxlaqi-mənəvi keyfiyyətlər aşılayan bu bayram artıq YUNESKO tərəfindən ümumdünya qeyri-maddi mədəni irsinin inciləri sırasına daxil olunub və dünyanın bir çox ölkələrində qeyd edilməkdədir. Bu, ölkə rəhbərliyinin milli-mənəvi dəyərlərimizin dünya miqyasında təbliği sahəsində apardığı məqsədyönlü siyasətin uğurlu nəticələrindəndir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev milli dəyərlərimizin, milli ənənələrimizin qorunub saxlanılması və təbliğinə həmişə xüsusi önəm vermişdir. Möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev də bu gün ulu öndərimizin ənənələrini davam etdirərək Novruzun ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunması üçün səylərini əsirgəmir.

Silahlı Qüvvələrimizin şəxsi heyəti 2016-cı ilin Novruz bayramını böyük ruh yüksəkliyi ilə, döyüş və mənəvi-psixoloji hazırlıqda qazandığı nailiyyətlərlə qarşılayır. Qoşunların təmas xəttində hər gün atəşkəs rejiminin Ermənistan silahlı bölmələri tərəfindən pozulmasına, mövqelərimizin intensiv atəşə tutulmasına baxmayaraq, Azərbaycan əsgəri Vətənin keşiyində mərdliklə dayanıb, düşmən cavab atəşləri ilə susdurulur, canlı qüvvə və döyüş texnikaları sarıdan xeyli itkilər verir. Şəhidlərimizin intiqamı alınır və bundan sonra da alınacaqdır.

Xalqımız Vətənin igid, mübariz döyüşçülərinə güvənir, işğal altında olan torpaqlarımızın azad ediləcəyi günü səbirsizliklə gözləyir.

Əziz Novruz bayramında şəhidlərimizin xatirəsini hörmət və ehtiramla yad edir, onların valideynlərini, ailələrini, Vətən uğrunda sağlamlıqlarını itirən döyüşçülərimizi, veteranları, hazırda düşmənlə təmas xəttində, döyüş növbəsində, qarovul xidmətində, sülhməramlı qüvvələrin tərkibində, xarici dövlətlərdəki missiyalarımızda xidmət edən şəxsi heyəti Novruz bayramı münasibətilə təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, əsl bayram əhval-ruhiyyəsi, xidmətdə uğurlar arzulayıram.

Əmin olduğumu bildirirəm ki, biz birlikdə müdrik və qətiyyətli Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi, ordu və xalqın birliyi ilə əzəli və əbədi torpaqlarımızı tezliklə işğaldan azad edəcəyik.

Böyük qələbəmizə inamla hər birinizin Novruz bayramını təbrik edirəm.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

# Müdafiə naziri ATƏT-in Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb



***Martın 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Günther Baxlerin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***

Müdafiə naziri qonaqlara regiondakı hərbi-siyasi vəziyyət, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etməsi, qaçqın və məcburi köçkünlərin mövcud problemləri, o cümlədən beynəlxalq təşkilatların münaqişənin tənzimlənməsi istiqamətində atdıqları addımların nəticəsiz qalması barədə fikirlərini bildirib.

"Ermənistanın cinayətkar, terrorçu rəhbərliyi dinc azərbaycanlı əhaliyə qarşı soyqırımı dövlət siyasəti səviyyəsində həyata keçirib. Bu gün də qoşunların təmas xəttində gərginliyin artırılmasında Ermənistanın kriminal hərbi-siyasi rejimi bilavasitə günahkardır. Münaqişənin beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində, Azərbaycanın dövlət sərhədləri daxilində həllinin yeganə yolu dünya ictimaiyyətinin birgə fəaliyyətilə işğalçı qüvvələrin torpaqlarımızdan çıxarılmasıdır. Silahlı Qüvvələrimiz ərazi bütövlüyümüzün bərpa edilməsinə hazırdır və bu şərəfli vəzifəni yerinə yetirmək üçün kifayət qədər gücə və qüvvəyə malikdir", - deyə Müdafiə naziri qeyd edib.

Ətraflı məlumata görə, minnətdarlığını ifadə edən Günther Baxler hazırda ATƏT-in fəaliyyətdə olan sədri kimi Almaniyanın prioritetləri haqqında danışıb, regional sülhə və sabitliyə təhlükə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə xüsusi diqqət ayrıldığını bildirib.

Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə nazirinin əmrilə bir qrup hərbi qulluqçuya növbəti “polkovnik” hərbi rütbəsi verilib



Martın 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə hərbi xidmətdə fərqlənən bir qrup zabitə növbəti "polkovnik" hərbi rütbəsi verilib.

Silahlı Qüvvələrin rəhbər heyətinin iştirakı ilə keçirilən tədbirdə Müdafiə naziri rütbələrə təqdim olunan hərbi qulluqçuları təbrik edərək, onlara gələcək xidmətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini çatdırıb.

"Qarşımızda torpaqlarımızın işğaldan azad olunması vəzifəsi dayanır. Siz də, bütün Silahlı Qüvvələrimizin şəxsi heyəti kimi, Ali Baş Komandanın və xalqımızın etimadını doğruldaraq, bu müqəddəs vəzifənin yerinə yetirilməsinə hazır olmalısınız", - deyə Müdafiə naziri bildirib.

Təltif olunan zabitlər göstərilən etimada görə ölkə başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Rütbələrə təqdim olunmalarının Novruz bayramı ərəfəsinə təsadüf etməsindən böyük qürur duyduqlarını və hərbi xidmətə daha da məsuliyyətlə yanaşacaqlarını xüsusi qeyd ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

## Baş nazir: 2015-ci ildə Silahlı Qüvvələrlə bağlı görülən işlərə 3.3 milyard manat vəsait ayrılıb

***Ötən il Silahlı Qüvvələrlə bağlı görülən bütün işlərin maliyyələşməsinə 3.3 milyard manat vəsait ayrılıb.***

Bunu martın 15-də Milli Məclisin iclasında Nazirlər Kabinetinin 2015-ci ildə fəaliyyəti barədə hesabatla çıxış edən Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə bildirib.

Baş nazir qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordu quruculuğu, Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi, hərbi sənaye potensialının gücləndirilməsi işinə hər zamankı kimi 2015-ci ildə də xüsusi diqqət yetirib. Bunun əsas səbəbi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllə də həllini tapmamasıdır. Ermənistan tərəfi yenə də vaxtı uzadaraq problemin həllindən yayınır, aidiyyatı beynəlxalq qurumlar isə ədalətsiz və hüquqa zidd olan mövqe nümayiş etdirirlər. Bütün bunlar nəzərə alınaraq, ordunun maddi-texniki sursatla təmin edilməsi, döyüş qabiliyyətinin durmadan artırılması istiqamətində çox mühüm tədbirlər həyata keçirilir. Son zamanlar Silahlı Qüvvələrimizin düşmənin hərbi təxribatına verdiyi tutarlı cavablar bunu bir daha sübut edir. Hərbi qulluqçuların təminatının yaxşılaşdırılması məqsədilə yeni hərbi hissələr və şəhərciklər istifadəyə verilib. 1500 zabit ailəsi mənzillə təmin edilib. Silahlı Qüvvələrin Yardım Fonduna cəmiyyətin müxtəlif təbəqələri tərəfindən ianə kimi daxil olan vəsaitin həcmi artaraq 70 milyon manatdan çox olub.

**AZƏRTAC**

# Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 17-də Qazax rayonunun Məzəm kəndi yaxınlığında qoşunların təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Peter Svedberq və Saymon Tiller keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kasprşik, onun səhra köməkçiləri Jiri Aberle və Yevgeni Şarov nəzarət ediblər.

# Ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi Silahlı Qüvvələrdə dərindən öyrənilir

***Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə tədbirlər planına əsasən, Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsində "Ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında milli-mənəvi dəyərlərin qorunub saxlanılması və inkişafının istiqamətləri" mövzusunda seminar keçirilib.***



Seminar başlamazdan öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, azadlığı uğrunda şəhid olanların xatirəsi hörmət və ehtiramla yad edilib.

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 2016-cı - Multikulturalizm ili üçün birgə planının Silahlı Qüvvələrdə uğurla həyata keçirildiyini və bu seminarın da həmin tədbirlərdən biri olduğunu bildirib.

Qeyd olunub ki, milli həmrəyliyi, bütövlüyü, birliyi təmin edən, milli təəssübkeşlik, vətənpərvərlik hisslərini daha da gücləndirən ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi bu gün Silahlı Qüvvələrdə də prioritetdir və bu istiqamətdə ardıcıl, məqsədyönlü iş aparılır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılovun mövzu ilə bağlı məruzəsi böyük maraqla dinlənilib.



Müasir, müstəqil Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası bütün dünya azərbaycanlılarını əhatə edərək, onların milli istinad mənbəyinə çevrildiyi fikrini önə çəkən məruzəçi qeyd edib ki, hələ keçən əsrin 70-ci illərindən başlayaraq kommunist ideologiyasının hökm sürdüyü bir dövrdə ulu öndərimizin uzaqgörənliklə milli zabit kadrlarının yetişdirilməsi məqsədi ilə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratması, Azərbaycan dilinin o vaxtlar Azərbaycan SSR-in Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olması çoxlarının xəyalına belə gəlməzdi və bunlar gələcək nəsillər üçün ən böyük, əvəzolunmaz töhfələr idi.

Seminarda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsinin bu gün də xalqımızı və dövlətimizi daha xoşbəxt gələcəyə aparmasından, bu məfkurə əsasında milli-mənəvi dəyərlərimizin qorunmasından və möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyevin bu məfkurəni uğurla davam və inkişaf etdirməsindən geniş söhbət açıb. Komitə sədri tolerantlığın Azərbaycan xalqının həyat tərzinə çevrildiyini, milli-mənəvi dəyərlərə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan dini dəyərlərə münasibətdə respublikamızın dünya ölkələri üçün örnək olduğunu vurğulayıb.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamına əsasən, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sifarişi ilə çap olunmuş "Qurani-Kərim"in tərcüməsi olan 1000 nüsxə kitab və Heydər məscidinin təsviri olan tablo Müdafiə Nazirliyinə hədiyyə edilib.

"Azərbaycan" jurnalının baş redaktoru, əməkdar incəsənət xadimi İntiqam Qasımzadə seminarda iştirakından böyük qürur duyduğunu, çox şeylər öyrəndiyini dilə gətirib və jurnalın yeni nömrəsindən 50 nüsxə tədbir iştirakçılarına paylayıb.

Silahlı Qüvvələrin Hərbi Akademiyası milli təhlükəsizlik və humanitar elmlər kafedrasının rəisi polkovnik Bəbir Quliyev, Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik-leytenant Fərhad Məmmədov və başqaları çıxış edərək mövzu ilə bağlı fikir və təkliflərini bildiriblər.

Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev seminara yekun vurub və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə tədbirlərin bundan sonra da davam edəcəyinə əminliyini bildirib.

**"Azərbaycan Ordusu"**

# Dini radikalizmə qarşı mübarizə tədbirləri ilə bağlı dəyirmi masa keçirilib

***Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Silahlı Qüvvələrdə dini radikalizmlə mübarizənin səmərəliliyinin artırılması məqsədilə 2016-cı - Multikulturalizm ili üçün tədbirlər planına əsasən, "Qeyri-ənənəvi dini cərəyanların təbliğatının qarşısının alınması və dini radikalizmə qarşı mübarizədə şəxsi heyətlə iş üzrə zabitlərin rolu" mövzusunda dəyirmi masa keçirilib.***

"N" hərbi hissəsində təşkil olunan dəyirmi masanı Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani açaraq bildirib ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının təsdiq etdikləri tədbirlər planına əsasən, birlik, birləşmə, hərbi hissələr, xüsusi təyinatlı hərbi təhsil müəssisələri və digər kollektivlərdə seminar-müşavirələr, dəyirmi masalar, söhbət və disputlar, görüşlər, mühazirələr və digər mədəni-kütləvi tədbirlərin təşkilinə artıq start verilib. Bu tədbirlər şəxsi heyətin milli-mənəvi dəyərlər əsasında tərbiyəsində mühüm əhəmiyyət kəsb etdiyi kimi, onların mənəvi-psixoloji hazırlığında, vətənpərvərlik və döyüş ruhunun yüksəldilməsində də mühüm rol oynayır.



Qeyd edilib ki, Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ölkəmizdə vicdan azadlığı ilə bağlı hüquqlar bərpa olunub, məscid və kilsələrin fəaliyyətinə rəsmən icazə verilib, ölkə Konstitusiyasında bütün dini etiqadların qanun qarşısında bərabər olduğu göstərilib, insan şəxsiyyətinə və insanlıq prinsiplərinə zidd dini baxışlar qadağan edilib. Lakin Azərbaycanda dini sahədəki tolerantlıq xalqımız üçün xarakterik olmayan bəzi sekta və cərəyanlara da fəaliyyət imkanı verib. Hətta bu qeyri-ənənəvi dini cərəyanların fəaliyyəti bir çox hallarda xalqımız və dövlətçiliyimiz üçün təhlükəli fəsadlar da yaradıb. Məhz bu səbəblərə görə 1997-ci ildə Azərbaycan Prezidentinin sərəncamı ilə xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə ölkəmizdə dini təbliğat aparmaq qadağan edilib.

Vurğulanıb ki, qeyri-ənənəvi dini cərəyanlar və dini radikalizm bütün cəmiyyət üçün bir bəla olduğu kimi, cəmiyyətin bir parçası olan ordu üçün də çox təhlükəlidir. Ona görə də keçirilən dəyirmi masanın mövzusu və qarşısına qoyduğu məqsəd çox aktualdır və önəmlidir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov mövzu ilə bağlı geniş məruzə edib. Öncə bu qurumun fəaliyyəti barədə dəyirmi masa iştirakçılarına məlumat verib. Bildirib ki, Azərbaycan dünyəvi dövlətdir və ölkəmizdə din dövlətdən ayrıdır. Buna görə də dövlət-din münasibətlərini tənzimləmək məqsədilə 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılıb. Bu komitə ictimaiyyətlə, hökumət və qeyri-hökumət təşkilatları ilə əlaqələrini daim genişləndirir, məqsədyönlü tədbirlər həyata keçirərək qarşısına qoyulmuş vəzifələri layiqincə yerinə yetirir.

Qeyri-ənənəvi dini cərəyanlar və dini radikalizm barədə ətraflı məlumat verən məruzəçi onların yaranma səbəbləri və təbliğatının qarşısını almaq yollarından da geniş bəhs edib, dəyirmi masa iştirakçılarının suallarını cavablandırıb.

Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının üzvü, Qafqaz Müsəlmanları İdarəsi sədrinin Sumqayıt və Abşeron rayonu üzrə nümayəndəsi Hacı Rauf Sərdarov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Dinşünaslıq ekspertizası şöbəsi müdirinin müavini Cahandar Əlifzadənin çıxışları da maraqla qarşılanıb.

Birlik komandirinin şəxsi heyətlə iş üzrə müavini polkovnik Elşad Əbilov sonda dəyirmi masanın qonaqlarına komandanlıq adından minnətdarlığını bildirib və bu tədbirin qeyri-ənənəvi dini cərəyanların təbliğatının qarşısının alınması və dini radikalizmə qarşı mübarizədə şəxsi heyətlə iş üzrə zabitlərin fəaliyyətinə müsbət təsir göstərəciyini nəzərə çatdırıb.

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# ABŞ-ın Oklahoma ştatının Milli Qvardiyasının nümayəndə heyəti Azərbaycanda səfərdədir



ABŞ-ın Oklahoma ştatının Milli Qvardiyasının Quru Qoşunları komandanı, briqada generalı Hopper Smitin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycana işgüzar səfərə gəlib.

Keçirilən görüşlərdə Azərbaycan ilə ABŞ arasında hərbi əlaqələrin genişləndirilməsi, regional təhlükəsizlik sahəsində əməkdaşlığın daha da gücləndirilməsi, eləcə də ABŞ və NATO ilə qarşılıqlı uyarlılıq səviyyəsinin inkişaf etdirilməsi və digər istiqamətlərdə ikitərəfli təcrübə mübadiləsi perspektivləri barədə fikir mübadiləsi aparılıb.

ABŞ-ın nümayəndə heyəti səfər çərçivəsində Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovun müşayiəti ilə aviasiya bazasında olub. Onlara bazanın yaranma tarixi, xüsusiyyətləri, məqsədi və tapşırıqları barədə ətraflı brifinq təqdim edilib.

Qərargah və döyüş növbətçiliyinin aparılması, start-komanda məntəqəsi, silahlanmada olan döyüş aviasiya vasitələri ilə yaxından tanış olan qonaqlar şəxsi heyətin sosial-məişət şəraiti ilə də maraqlanıblar.

Uçuş və texniki heyətlə görüşən nümayəndə heyətinin üzvləri MiQ-29 döyüş təyyarələrinin təlim uçuşlarını izləyərək aviabazada döyüş xidməti üçün yaradılan şəraitdən məmnun qaldıqlarını ifadə ediblər.

* * *

Elə həmin gün qonaqlar Silahlı Qüvvələrin Baş Klinik Hospitalında da olublar. Hərbi tibb müəssisəsinin rəhbərliyi və tibb heyəti ilə görüşən ABŞ-ın nümayəndə heyətinə



hospitalın yaranma tarixi, fəaliyyəti barədə brifinq təqdim olunub.

Sonra müalicə korpuslarındakı şöbə və bölmələrə baş çəkən qonaqlar beynəlxalq standartlara cavab verən avadanlıq və cihazlarla təchiz olunmuş palatalar və əməliyyat bloklarında yaradılmış şəraitlə də tanış olublar.

Eyni zamanda ABŞ-ın nümayəndə heyəti mədəni proqrama uyğun olaraq Azərbaycan Hərb Tarixi Muzeyini də ziyarət ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi tibb imkanlarının təkmilləşdirilməsi və ilkin tibbi yardımın göstərilməsi üzrə seminar keçirilir

Silahlı Qüvvələrin Baş Klinik Hospitalında ABŞ-ın Avropadakı Hərbi Hava Qüvvələri Komandanlığının mobil təlim qrupu tərəfindən Azərbaycanda hərbi tibb imkanlarının təkmilləşdirilməsi və həkiməqədər ilkin tibbi yardımın göstərilməsi mövzularında seminar öz işinə başlayıb.

Seminar müddətində təlimçilərə NATO-nun müxtəlif əməliyyatları zamanı, o cümlədən sülhməramlı əməliyyatlarda qazanılmış və digər təcrübələrə əsasən, hərbi qulluqçularla əməliyyatların keçirilmə rayonuna açılmamışdan əvvəlki və geri qayıtdıqdan sonrakı dövrlərdə aparılan işlər, yoluxucu xəstəliklərin immunoprofilaktikası və izlənilməsi, çöl-səhra şəraitində sanitar-gigiyena tədbirləri və digər mövzularda məlumatlar təqdim olunacaq, müzakirələr aparılacaq.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***<u>18 mart 2016-cı il.</u>***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində 82 millimetrlik minaatanlardan, həmçinin iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 115 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Ağstafa rayonunun Köhnəqışlaq kəndində, Berd rayonunun Çinari, Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Əlibəyli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Tərtər rayonunun Çiləbürt, Göyarx, Yarımca, Çaylı, Ağdam rayonunun Şıxlar, Baş Qərvənd, Yusifcanlı, Novruzlu, Cavahirli, Sarıcalı, Kəngərli, Nəmirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Azərbaycan Silahlı Qüvvələri əməliyyat şəraitinə uyğun olaraq, düşmənin mövqelərinə və səngərlərinə 116 dəfə atəş zərbəsi endirib.

# "TURAZ Şahini - 2016" təlimlərində şərti terrorçuların yerləşdiyi məkanların məhv edilməsi əməliyyatı keçirilib



***<u>Türkiyənin Konya şəhərində keçirilən "TURAZ Şahini - 2016" birgə taktiki-uçuş təlimləri davam edir.</u>***

Təlimlərin ssenarisinə əsasən, Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin pilotları birgə F-16 qırıcı təyyarələri ilə şərti olaraq terrorçuların yerləşdiyi məkanların məhvetmə əməliyyatını keçiriblər. Təlim əməliyyatı zamanı şərti döyüşə girən F-16 qırıcıları qoruma təyyarələri vasitəsilə mühafizə edilib. Birgə keçirilən əməliyyat uğurla başa çatıb. Şərti terrorçular və onların yerləşdikləri ərazi məhv edilib.

Təlimlər davam edir.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Seyran Ohanyan iki ağanın tək nökəri olmaq istəyir"

***<u>"Ermənistanın həm Rusiyanın nəzarətindəki Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) fəal üzvü olması, həm də NATO ilə yaxınlığı siyasi əxlaqsızlıqdan başqa bir şey deyil."</u>***

Bu fikri keçən həftə Brüsseldə NATO-nun mənzil-qərargahında "28+1" formatında Şimali Atlantika Şurası ilə Ermənistan arasında keçirilən toplantıda Seyran Ohanyanın görüşlərini şərh edən sabiq hərbi birlik komandiri, ehtiyatda olan general-leytenant Yaşar Aydəmirov bildirib.

"Seyran Ohanyan kimdir? Onu yəqin ki, NATO-da da yaxşı tanıyırlar. Əgər bilmirlərsə, qısa xatırlatma yerinə düşür. Qarabağ savaşında dinc əhaliyə qarşı qəddarlığı, amansızlığı, qaniçənliyi ilə ad çıxarmış quldur dəstəsinin başçısı, terror yolu ilə Ermənistanda hakimiyyəti ələ keçirmiş və kriminal strukturların dəstəyinə arxalanaraq "dövləti" idarə edən şəxslərdən biridir. Ələ keçirdiyi hakimiyyəti zorla da olsa qoruyub saxlamaq üçün bütün vasitələrdən - yalan, iftira, şantaj, hətta əxlaqsızlıqdan belə çəkinmir. Odur ki, Seyran Ohanyanın, eyni vaxtda KTMT və NATO-nun "qucağına" atılması onun kimi ünsürlər üçün adi haldır. Amma, necə deyərlər, onun "iki ağanın tək nökəri" olması cəhdləri heç bir fayda verməyəcək. Çünki Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yeganə həlli yolu beynəlxalq ictimaiyyətin ədalətli mövqeyi, xalqımız və dövlətimizin iradəsi, Silahlı Qüvvələrimizin qüdrəti və gücündədir", - deyə general-leytenant Y.Aydəmirov qeyd edib.

**AZƏRTAC**

# Qədəmlərin mübarək, ulu Novruz!



Dünyanın düz vaxtlarında uşaqlar, yeniyetmələr el-obanın üzüyola yollarında əynində bayramlıq paltarı, əlində Novruz fəsəlisi üzü duruluğa yön tutub. Onda dünya gözünü döyüb mağmın-mağmın Doğudan Batıyacan hökmü keçən millətin qılıncına yalmanırdı.

Yüz illərin o üzündə siyasət küləkləri tərsinə əsib, məlhəm havasına, gur bulaqlarına, geniş çəmənlərinə, göylərə baş çəkən ağaclarına, zəngin yeraltı, yerüstü sərvətlərinə tamahlanan qəlbi paxırlar, tamahı boyundan yuxarı olanlar məqam güdüb, ağalıq iddiasına düşüb, canım məmləkətimizin növrağı üşüyüb - qılıncqılınc genişlənən sərhədləri fərman-fərman kiçilib. Sərhədlərimizi kiçildənlərin birinin hökmü digərini dingildədib. Döyüşlər olub, bəndlər uçub, ağban evlər torpağa qarışıb...

O vaxtdan 1991-ci ilə kimi imperiya dünənki tariximizə qısqandı, yanar ocaqlarımızı ətəkləyənlərə barmaq silkələdi. O ocaqları sönməyə qoymadıq. O ocağın işığında inancımızın söykəndiyi Novruzumuzu da yaşatdıq; "ağırlığımızı-uğurluğumuzu" ocaqlarda kül eləmək istəyiylə...

İnanclara tapınalı sənin adın ilkinlər sırasında anılıb, ulu Novruz! Hər Novruz tonqalı çatılanda el-obaya əmin-amanlıq arzulanıb, döyüşlər olanda qılınc tutan oğullara qələbə arzulanıb, əkində-səpində bol ruzi arzulanıb, uzaq səfərlərdə olanların ev-eşiyinə sağ-salamat dönüşü arzulanıb.

25 ildi könül xoşluğunun qırışığı açılmayanlar hər bayram tonqalı alışdıranda yurd-yuvası düşür yadına:

*...yurda sarı,*
*Ruhumu yurda sarı.*
*Ürəyim dərdli-dərdli,*
*Boylanır yurda sarı...*

Səndən ruhunun beşiyinə qayıtmağı diləyirlər, sənə ad edilən ocağı həyətində qalamağın, sənin adına səmənini yurdunda göyərtməyin təşnəsidilər. Ağbirçəklərin bayatıları eşidəni varından yox eləyir:

*...dərdi sinə,*
*Əl atıb dərdi sinə.*
*Könlümün gülşənində*
*Qoymaram dərd isinə.*

Ata yurdunun ad olduğu eli-elatı Vətən bilənlərin builki Novruzdan istəyi nədi? - bir udum Vətən havasıdı, bir içim Vətən suyudu. Min illərdi sən umudlunun umud yeri olubsan, diləklinin güvənc yeri, ulu Novruzum! Onların murazını gözündə qoyma. Ev-eşiyindən iraq düşənlərin güvənc yeri olan əsgərlərimizin Vətən sevgisi eşqinə, müqəddəsliyin eşqinə, inam eşqinə onların gözlərini daha nurlu elə, qətiyyətini ovxarla, ürəyinin təpərini daha da artır. Məmləkətimizin gözlədiyi günü onlar tezləşdirəcək. Sənin adına ad olacaq tonqalları da onlar qoruyacaq. Şair-publisist Abdulla Qurbaninin inamını da onlar doğruldacaq: Qarabağa yaz gələcək! Yaz Novruz deməkdi. Sən hər gələndə yaz libasında gəlirsən axı. El-obanın intizarını bitir, ulu Novruz!

İlaxır çərşənbədə ürəyi 25 ilin sıxıntılarına nənni olanlar "qulaq falına" çıxıb, şübhəsiz. Eşitdikləri xeyirliyə yozulasıdı. Bu yozumu gerçəkləşdir, ulu Novruz! Məmləkətimizə könül xoşluğu gətir...

2017-nin adına ad olacaqsan. Həmin ilin Novruzu tariximizin cığırdaşı olacaq. Buna hamımız inanırıq. Məmləkət "Sənə inanırıq, ölkə rəhbəri, Sənə güvənirik, Vətən əsgəri!" deyənlər sənin builki gəlişindən də belə bir könül xoşluğu gözləyirdi. Beynəlxalq təşkilatlar qətiyyət göstərə bilmədi. Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan neçə illərdi sənin gəlişinin həsrətindədi. Onların intizarını bitir. Neçə illərdi işğal olunmuş bu torpaqlarımızda ürkəklik görürsən. Novruzgüllərinin qönçəsindən çəkinə-çəkinə çıxdığını, əsən küləklərin qanadının zədəli olduğunu, axar bulaqların səsinin tutulduğunu duymayıbsanmı? Borçalıda bir məsəl eşitmişdim: "Qananı haqq əmriynən, qanmayanı yan dəmiriynən qandırarlar." Düşmən qansa nə xoş, qanmasa söz silahındı, silahının qundağını sıxan əsgərlərimizindi. Şəhidlərimizin ruhu eşqinə o oğulların qələbəyə aparan yolundan dumanı, sisi dağıt. Səni intizardan üzülən, ürəyi burxulan yurd yerlərimizə o oğullar yetirəcək. Düşmənlərin silahlarından ocaq çatılacaq, ermənilik niyyəti külə dönəcək. Onda göy üzünün göylüyünü görüb də "Müqəddəsliyimi hər oğluna halal edirəm, Odlar diyarı!" deyəcəksən. Sən yaxşını yamandan, xeyiri şərdən, qaranı ağdan seçən Novruzumuzsan. Tarixin bəlkə də Zərdüştülüklə səsləşir. Zərdüştün xeyirli fikir, xeyirli iş şərtini hər birimizin ömrünə, gününə şam, çıraq elə, ulu Novruzum! Vətənə görə! O xeyirli fikir də, xeyirli iş də torpaqlarımıza bağlıdı. Bu il ən xeyirli işimiz torpaqlarımızı işğaldan azad eləməkdi. Bu xeyirli işimizə xeyir-dua ver, ulu Novruz! Xeyir-dua ver!..





* * *

Əlahiddə Ümumqoşun Orduda Novruz bayramı münasibətilə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikasının elm, mədəniyyət xadimlərinin, ziyalıların, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri tədbiri giriş sözü ilə Əlahiddə Ümumqoşun Ordunun mənəvi-psixoloji təminat şöbəsinin rəisi polkovnik Mirqiyas Rüstəmov açıb.

Azərbaycan Respublikası Prezidentinin, Müdafiə nazirinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin, Əlahiddə Ümumqoşun Ordu Komandanının təbrikləri oxunub.

Naxçıvan Ali Məclisinin deputatı, Naxçıvan Müəllimlər İnstitutunun rektoru professor Oruc Həsənli muxtar respublikanın ictimaiyyəti adından əsgər və zabit heyətini Novruz bayramı münasibətilə təbrik edib, xoş arzularını çatdırıb.

Digər çıxış edənlər də son illər ölkəmizdə həyata keçirilən ordu quruculuğu siyasətinin nəticəsi olaraq, Azərbaycanın hərbi qüdrətinin möhkəmləndiyini əminliklə qeyd ediblər. Bildirilib ki, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi qüdrətini artıran doğma ordumuz istənilən an işğal altında olan ərazilərimizi düşməndən azad etməyə qadirdir.

Sonda muxtar respublikanın yaradıcı kollektivləri maraqlı konsert proqramları ilə çıxış ediblər. Xüsusi təyinatlı əsgərlər öz bacarıqlarını nümayiş etdiriblər.





* * *

Ölkəmizin bütün guşələrində Novruz bayramı ilə əlaqədar mərasimlər keçirilir, qədim adət-ənənələrimizə ehtiram ifadə olunur. Gündən-günə hərbi qüdrətini artıran Azərbaycan Ordusunun hərbi bölmələrində də bayram tədbirləri keçirilir, Vətənimizi göz bəbəyi kimi qorumağa sədaqət andı içmiş gənclər bu bayramı xüsusi şadyanalıqla qarşılayırlar.

Cəbhə bölgəsindəki "N" hərbi hissəsinin şəxsi heyəti də bayram əhval-ruhiyyəsinə bürünüb. Bu günlərdə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun bir qrup əməkdaşı və Bərdə rayon ictimaiyyətinin nümayəndələri hərbi hissədə olublar.

Bayram tədbiri Dövlət himninin səsləndirilməsi ilə başlanıb. Ümummilli liderimiz Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan döyüşçülərin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Hərbi Prokurorluğun şöbə rəisi, ədliyyə polkovniki Aydın Ələsgərov, Qarabağ hərbi prokurorunun müavini, ədliyyə polkovnik-leytenantı Tahir Quliyev, Bərdə rayon İcra Hakimiyyətinin məsul işçisi Asif Abbasov və başqaları çıxış edərək ölkəmizdə milli-mənəvi dəyərlərin qorunmasından və ordu quruculuğuna göstərilən qayğıdan danışıblar.

Hərbi Prokurorluğun kollektivi tərəfindən xidmətdə fərqlənən bir qrup əsgərə hədiyyələr verilib.

Tədbirə qonaq gəlmiş Bərdə rayonundakı şəhid Fərahim Quliyev adına 2 saylı uşaq musiqi məktəbinin kollektivi, solistlərdən Qəni Quliyev və aşıq Müzəffər Şükürov əsgərlərə xoş musiqi nömrələri ərməğan ediblər.

Sonda mayor Səməd Məmmədov bayram tədbirinə qonaq gəldiklərinə görə Hərbi Prokurorluğun və Bərdə rayon ictimaiyyətinin nümayəndələrinə hərbi hissənin komandanlığı adından minnətdarlıq bildirib.

**"Azərbaycan Ordusu"**

# "Ordu xalqın, xalq ordunun dayağı"

## Müdafiə Nazirliyi və Xocavənd rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirilmiş "Qarabağa yaz gələcək" tədbirindən reportaj

...Dağda-düzdə də, üzdə-gözdə də, könüllərdə də yazın nəfəsi duyulur. Açan çiçəklər də, ötüşən quşlar da, göyərən otlar da, göyərdilən səmənilər də, ... bir sevincin harayçısıdı: Qarabağa yaz gələcək!

Ağaclar tumurcuq-tumurcuq oyanır. Xocavəndə də yaz gəlir. Bir az kövrəkliklə, əsgərlərin duruşunu-baxışını gözlərinə köçürə-köçürə, bu inamı sabahlara gözlənilən soraq eləmək ümidiylə...

*Qış getdi, yenə bahar gəldi,*
*Gül bitdı və laləzar gəldi, -*

yazmışdı qılıncın da, sözün də Xətaisi. 610 il sonra baharın gəlişini Abdulla Qurbani

*Çiçəyə baxıram ləçəyində şeh,*
*Ağaclar uçunur yarpağında meh,*
*Hər əsgər baxışı bir qövsi-qüzeh;*
*Gözəllik boylanır öz görkəmində,*
*Bahar nə gözəldi söz görkəmində!*

kimi təqdim edəcək. Tədbir başlayanda bu misraları bayram ovqatına söz üverturası biləcəyik. Bu biçim təqdimatdan hələ xəbərsizik, eşidincə düşüncələrimizin qırışığı açılacaq, zamanına sığmayan fərəh aşıb-daşacaq, səngərlər aşacaq. Həm də düşmənin "üç addımlığında."

Yer də özü boyda könül xoşluğudu, göy də. Yerin yaşıllığı, göyün göylüyü göz doydurur. Bir az aralıdan eşidilən zümzümə duyğuları varından yox eləyir: "Könlüm keçir Qarabağdan..." ...

Bu bənzərsiz zümzüməni gözlərini qarşı tərəfdən çəkə bilməyən, çəkməyən 75-80 yaşlı ağsaqqalın pıçıltısı tamamlayır: "İşğal altında qalan torpaqlarımıza qılınc qından sıyrılan təki gedəcəyik. Həsrət canımızı üzür, ruhumuzu dara çəkir...". Bu kövrək zümzümənin də, bu qətiyyətin də səbəbkarı ssenari müəllifi və rejissoru əməkdar incəsənət xadimi polkovnik Abdulla Qurbani olan "Qarabağa yaz gələcək" devizi ilə keçirilən ordu ilə xalqın birlik bayramıdı.

Ordumuz bu qətiyyəti o zümzümə yiyəsinə də, o pıçıltı yiyəsinə də səngərlərin o üzündə də yaşadacaq! Həm də yaxın vaxtlarda yaşadacaq!

Tədbir yürüşlə başlayır...

Döyüş texnikasının üstündə üçrəngli bayrağımız dalğalanır. "Yaxın vaxtlarda işğal olunmuş ərazilərimizdən belə qayıdacağıq!" inamının ifadəsidi. Xüsusi təyinatlıların, səngərlərdən tədbirə gələn əsgərlərin avtomatlarının lüləsində novruzgülü görünür. Bu biçim rejissura tapıntısı məmləkətimizə də, beynəlxalq ictimaiyyətə də mesajdı: sülh istəyirik, ermənilər işğal olunmuş ərazilərimizi tərk etməlidi. Tərk etməsələr, bu gülləri güllələr əvəzləyəcək! Abdulla Qurbaninin təxəyyülünə necə heyrətlənməyəsən? Bu bənzərsizliyi bəşəriliyə necə ad eləməyəsən?..

Bir ağsaqqal gözlərini yürüşdən çəkə bilmir. Cavanlığınımı xatırlayır, Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olanlarımı, Xocavənddə ocağı sönənlərimi, "gülü yarpıza dönənlərimi", xocavəndli olub Xocavəndi görməyənlərimi, ... - bilinmir. Dodaqlarında közə dönən kəlmələri eşidə bilməsəm də, gümanıma güvənirəm: qayıdacağıq. Xocavəndimizə qayıdacağıq. Xocavəndin yazını bu oğullar gətirəcək.

Yürüş bu möhtəşəm tədbirin üverturasıdı elə bil...

Qədim geyimlərdə igidlər, sərkərdələr görünür. Ad çəkilmir, təqdimat olmur - ağır yerişilə meydan boyu gərdiş edənləri kim kimə oxşadırsa-oxşatsın. Ssenari müəllifi bunu tamaşaçıların tariximizə bələdliyinin öhdəsinə buraxır. Onların səssiz sözü də "Qarabağa yaz gələcək" deyir. Bu kəlmələrin şirinliyini duymaq çətin deyil...

Tədbir başlayır. Aparıcılar



(Abdulla Qurbani, xalq artisti Pərvanə Məmmədova) yazın gəlişini kəlmə-kəlmə, misra-misra uğurlayır - bayatılarla, holavarlarla, sayaçı sözlərlə.

"Qarabağa yaz gələcək" deyir aparıcılar. Deyirlər, toplaşanları inama söykənən mətləbə inandırırlar: Qarabağa yaz gələcək. Qarabağ üçün yaz işğalçının murazını gözündə qoymaqdı. Hamı - ağsaqqal da, ağbirçək də, yeniyetmə də, uşaq da, şəhid atası da, anası da, şəhid balası da, ...belə düşünür...

Tarixi neçə yüzillərin o üzü ilə səsləşən, bir zamanlar Aşağı Qaranlıq adıyla tanınan, bəşər tarixinin Azıx, Tağlar mağaralarının ünvanı olan Xocavəndin dünəni anılır, çəkdiyi sıxıntılar xatırladılır. Hamı bugünkü tədbirin işığının onun sabahlarını nurlandıracağına yerə-göyə inandığı kimi inanır...

Ssenari müəllifinin (həm də rejissorun) vizual və virtual təqdimatı "Qarabağa yaz gələcək" inamının təzahürüdü...

Tədbir boyu söz kadrla tamamlanır, hər mətləb öz təsdiqini kadrlarda tapır. Bu kadrların əksəriyyəti ayrılıqda da, vəhdətdə də mətləbdi. Həm də rəmzlərdən barınan mətləblərdi. Qönçə köynəyindən çıxan çiçəklər də rəmzdi, Xarı bülbülün kövrək duruşu da, qayaları çığnayıb keçən şəlalə də, beşiyində mışıl-mışıl yatan körpə də, bu kadrları tamamlayan səngərlər də, səngərlərdəki əsgərlər də, dağların zirvəsindən sürüşüb düşən buludlar da, şəhid anasının həsrət yüklü baxışı da, durnaların uçuşu da, çəmənlərin çiçək naxışı da, ... rəmzdi.

...Qanadları Yeri kölgələndirən qartalın uçuşunu gözlərimə köçürürəm. Qartal uçur, uçur və ... arzuladığı yerə qonur. Ssenari müəllifinin mətləb yozumu: əsgərlərimiz işğal olunmuş torpaqlarımıza bu qətiyyətlə gedəcək!..

Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının solisti Vüsal Qasımovun ifasında Emin Sabitoğlunun "Vətən bayatıları" səslənincə, kadrda bir ana görünür. Oğlu Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olub. Bu dərdin izləri üzündə görünür, ürəyindən keçənlər baxışlarında cəmlənib...

Xanəndə Türkay Məlikovanın ifasında "Kəsmə şikəstə" səslənir. "Kəsmə şikəstə" toplaşanların duyğularını incəldən, Xocavənddən iraq düşənlərin ovunmayan qəhərini-dərdini ovundura biləcəkdimi? Xallarla, xırdalıqlarla xocavəndli illərə aparmağa gücü çatacaqdımı? Kadrda gözləri yollardan yığılmayan nənənin ürəyindən keçənlərin tərcümanıdı "Kəsmə şikəstə"...

Monitorda Xətai kəndidimi, Kuropatkinodumu, Sələkətindimi, Qaradağlıdımı, Muğanlıdımı, düzü-dünyanı tutan güllər görünür. Ahəstə-ahəstə külək əsir. Çiçəklər titrəşir. Göz yaşları üzünü yandıran bir ananın hıçqırıq qarışıq

*...gülüstana,*
*Yol gedir Gülüstana.*
*Ömrümüz çətir olar,*
*Qoymarıq gül istana -*

bayatısı məni də, Sələkətin orta məktəbinin sonuncu sinif şagirdlərini də kövrəldir. Mənə belə gəlir ki, tədbirə gələnlərin hamısı bu anlarda o qənirsiz gözəlliyin həsrətindədi. Könül qübarı qılığa yatmır. O bayatıya söykək olası bir bayatı keçir könlümdən:

*...dərdi dara,*
*Daraq al, dərdi dara.*
*Əlimdə imkan olsa,*
*Çəkərdim dərdi dara...*

Bu bayatının kövrəkliyini yaşamaqdaykən "Çağırış" mahnısı səslənir. Şeir (Abdulla Qurbani) də, musiqi də (Nailə Mirməmmədli), ifa da (Silahlı Qüvvələrimizin Mahnı və Rəqs Ansamblının solisti gizir Ağabala Abdullayev) toplaşanların ürəyini coşdurur.

*Bayrağa döndərib*
*qanlı köynəyi,*
*Şuşa qalasına*
*taxmaq vaxtıdı! -*

misraları, sözün əsl mənasında, çağırış gücündədi. Ssenari müəllifinin şəhid köynəyinə bu qədərsiz sayğısı yerə-göyə sığışmır. Bu ovqatı tədbirə gələnlərə, onların timsalında məmləkətimizə ssenari müəllifi yaşadır.

Monitorda dərdinə dirsəklənmiş qoca görsənir. Baxışları uzaqlara dikilib. Xocavəndsiz illərin ağırlığından ürəyi burxulub kimi görünür. Səngərlərdən gələn, quraşdırılmış səhnə boyu nizami sırayla düzülən əsgərlərin baxışlarında çırpınan, silahını sıxan barmaqlarına axan sevgi seziləndir. Toplaşanlar xalqı təmsil edir bu tədbirdə, bu əsgərlərsə ordunu. Bu mizan ordu ilə xalqın birliyinin ifadəsidi (bir neçə ay əvvəl Abdulla Qurbaninin ssenarisi və rejissorluğuyla bir tədbir keçirilmişdi: "Ordu xalqın, xalq ordunun dayağı." Bugünkü tədbiri həmin tədbirin məntiqi davamı hesab etmək mümkündür. Aparıcının o əsgərlərə müraciətlə: "Onu yurd yerinə qaytar, əsgər!.." deyir (Abdulla Qurbaninin mizanlarının məntiqi yozumu bilavasitə Vətənə, Vətənin bu gününə, bu günündən sabahına yönəldilib). O anı unutmaq mümkünmü? - əsgərlərin yumruqları düyünlənib, baxışları toplaşanların tünlüyünü yarıb uzaqlara dikilir. O yerlərə ki, illərdi ayaq səsimizə, nəfəsimizə həsrətdi, əllərimizin təmasının nisgilini çəkir, gülləri qönçəsindən çəkinə-çəkinə boy göstərir, bulaqlarının pıçıltısı güclə eşidilir, göylərində qartallar uçuşmur, güllə-güllə didilmiş torpaqların məlhəmi həsrətlilərinin təması olacaq. O təması bu əsgərlər gerçəkləşdirəcək. "Bu təmasa az qalıb" - əsgərlərin baxışlarından oxunan bu ümid o qədər qətiyyətlidir ki!..

Düşünürəm: tədbirdə "Vətənin pərvanəsi" ifadəsi xoş ovqat üçün deyilmədi. Ssenari müəllifi bu ifadəni tədbirin mahiyyətinə ad eləyib, şübhəsiz. Dədə Qorqudun bir deyimi düşür yadıma: torpağı qorumadınsa, əkib-becərməyə dəyməz. Bu deyimin işığında ssenari müəllifinin "Vətənin pərvanəsi olmadınsa, onun havasını udmaq, suyunu içmək haqqını itirirsən" kəlamı görünür elə bil...

Solistlərin ifasında "Vətən, sənin şəhidlərin" mahnısı səslənir:

*Qarabağdan nigarandı,*
*Vətən, sənin şəhidlərin...*

Monitorda şəhid məzarları görünür. Onillər, yüzillər keçəcək, yeniyetmələr cavanlaşacaq, cavanlar ahıllaşacaq, şəhidlər bu yaşda yaşayacaqlar. Zaman-zaman Vətənin nə olduğunu yaşatmaqla yaşayacaqlar...

Oğlu yaşında şəhid ata var...

Qızı yaşında şəhid ana var...

Baba adının şirinliyini yaşamayan baba var...

Mahnıdan duyğulanan analar xırdaca yerişlə gələn əli məşəlli əsgərləri görüncə, bir daha əmin olurlar ki, "Beşiyi torpaq, yorğanı yarpaq olanlarımızın" ruhu yaşantılarımıza çıraqdı. Bu gəliş, belə gəliş işğal olunmuş kəndlərimizə ad edilən yadetmədi. Məşəllər hamımızı düşündürən bir mətləbin açarıdı: bu oğullar səngərləri tarixi yerinə köçürəcək, bu kəndlərdə də, Şuşada da, Cıdır düzündə də, Kirs dağında da, Ərgünəşdə də, ... qələbə tonqalı çatılacaq. O ocağın işığı məmləkətimizə sayğısı olanların gözlərinin nurunu artıracaq, məmləkətimizə xor baxanları üşündürəcək.

Solistlər şəhid anasıdı, şəhid atasıdı sanki. Rejissura ssenarini məntiqlə tamamlayır; şeir (Abdulla Qurbani) şəhid analarına, şəhid atalarına ehtiramın söz təsdiqidi. Bu mahnını dəfələrlə dinləmişəm. Həmişə də duyğulanmışam. Bu gün tamam başqa biçimdə olan duyğularım "ipə-sapa yatmır". Hamı da mənim günümdədi: bu mahnı düşüncələri bürüyüb. Ssenari müəllifi (həm də rejissor) məlum həqiqəti bu gün daha duyğusallıqla yaşadır dinləyənlərə...

Monitorda 146 ad-soyad. Şəhidlərdi. Cavanı da var, yaşlısı da. Kişi də var, qadın da, uşaq da...

Bir ananın lal fəryadını duyuram səyriyən dodaqlarında: "Anan ölsün, ay bala!..".

Bir qızın hıçqırığı, hıçqırıq qarışıq kəlmələri məni varımdan yox eləyir: "Bacın ölsün, a qardaş!.."...

Diqqətimi bir qədər aralıda dayanmış yeniyetmələrin yumruqlarının düyünləndiyi çəkir. "Qarabağın yazını könüllərə ordumuz gətirəcək" düşünürlər yəqin. Düşüncələrim onların düşüncələrinə söykənib: "Bu oxuma (söz, musiqi, səs) səngərlərin o üzünün ürəyini üzəcək, şübhəsiz..."...

"Ürəyindən nələr keçir çal, aşıq" deyir aparıcı. Mənə elə gəlir ki, aşıq "Sarıtel"dən "Qəhrəmanı"ya, "Misri"yə, "Cəngi"yə keçid eləyəcək, ürəkləri bu havalara köklənənlər elə buradan Qarabağa yollanacaq...

"Qarabağa yaz gələcək" tədbirində Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi genaral-mayor Rasim Əliyev bu qəbil tədbirlərin Silahlı Qüvvələrimizin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında mühüm əhəmiyyətə malik olduğunu qeyd etdi. Əmin olduğunu bildirdi ki, Azərbaycan əsgəri Qarabağa arzuladığımız bayramı yaşadacaq. Həm də yaxın vaxtlarda...

Qarabağa yaz gələcək! Yaz gələcək! Qarabağ bayram ovqatına "Xoş gəldin, Novruzumuz, xoş gəldin!" - deyəcək!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Minnətdarlıq

*Bu günlərdə Müdafiə nazirinin ünvanına Siyəzən rayonunda yaşayan bir zabit anasının minnətdarlıq məktubu daxil olub. Övladına üçotaqlı mənzil verilməsinə görə ən xoş arzular bildirilən məktubu dərc edirik.*

**"Azərbaycan Ordusu"**

Ölkəmizdə ordu quruculuğuna, hərbi qulluqçuların sosial-məişət problemlərinin həllinə dövlət rəhbərliyi səviyyəsində böyük diqqət göstərilir. Zabit və gizirlərə yeni tikilmiş müasir binalarda mənzillər verilir və ya onlar xidməti mənzillərlə təmin edilirlər. Vətənin müdafiəsində dayanmağı özünə peşə seçmiş insanları bu münasibət daha da sevindirir.

Bu sevincdən bizə də pay düşüb. Bizim ailəmiz dövlətin öz hərbçisinə göstərdiyi qayğının bilavasitə şahididir. Belə şad xəbər bu günlərdə bizim də qapımızı döyüb.

Zəhmətkeş ailədə böyümüş oğlum Murad Muradov 2009-cu ildə Əli Hərbi Dənizçilik Məktəbini fərqlənmə diplomu ilə bitirib, o vaxtdan Silahlı Qüvvələrimizdə zabit kimi xidmətini davam etdirir. Peşəkar zabit olaraq üzərinə düşən vəzifələrini layiqincə yerinə yetirir.

Bu ilin fevralında Müdafiə Nazirliyi tərəfindən oğluma üçotaqlı, tam təmirli, zəruri avadanlıqlarla təmin edilmiş xidməti mənzil verildi. Bu, əslində Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbçi ailələrinə göstərdikləri ən yüksək qayğının bariz nümunəsidir.

Oğlum baş leytenant Murad Muradovun xidməti borcunu bundan sonra da layiqincə yerinə yetirəcəyinə əminəm.

Hərbi qulluqçulara göstərilən bu qayğıya görə ailəmiz adından Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlığımızı bildirir, Silahlı Qüvvələrimizin şəxsi heyətinə uğurlar arzulayırıq.

**Aygün MURADOVA,**
**Siyəzən rayonu**

# Silahlı Qüvvələrimizin istifadəsində olan silah və texnika erməni birləşmələrini darmadağın etməyə imkan verir



"Voenno-promışlennıy kuryer" saytında Siyasi və Hərbi Analiz İnstitutunun direktor müavini Aleksandr Xramçixinin Azərbaycana dair dərc edilmiş məqaləsini oxuyarkən müəllifin baş verən proseslərdən bixəbər olduğu aydın görünür.

Bunu həmin məqalə ilə bağlı AZƏRTAC-ın sorğusuna cavab olaraq Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən bildiriblər.

Məlumatda qeyd olunub ki, məqalədə sadalanan faktlar və rəqəmlər artıq köhnədir. Azərbaycan qısa dövrdə arsenalında olan silah və texnikanın ən müasir, yüksək dəqiqliyə və dağıdıcı gücə malik olanları ilə yenilənməsi işini həyata keçirib. Bu proses artan templə davam edir. Müəllifin mülahizələri çox vaxt yersizdir, indiki vəziyyəti, regiondakı prosesləri real əks etdirmir.

"Azərbaycan işğalçı, separatçı cinayətkarlardan ibarət qurumla mübarizə aparmaq üçün kifayət qədər gücə, qüdrətə malikdir. İşğalçı Ermənistan ilə fəal hərbi əməliyyatlara başlamamasının yeganə səbəbi isə dövlətimizin yürütdüyü sülhsevər siyasət və beynəlxalq qanunlara hörmətlə yanaşmasıdır. Əks təqdirdə Azərbaycan Silahlı Qüvvələrinin istifadəsində olan silah və texnikanın gücü nəinki Dağlıq Qarabağda olan işğalçı erməni birləşmələrini darmadağın etməyə, hətta Ermənistan ərazisindəki istənilən obyekti məhv etməyə imkan verir", - deyə Müdafiə Nazirliyinin məlumatında xüsusi vurğulanıb.

# Ordudakı aclıq, səfalət və təhqirlər üzündən ermənilər biri-birini qırır

***Mart ayı ərzində daxili çəkişmələr, intizamsızlıq, silahla davranma qaydalarının pozulması və özünəqəsd nəticəsində, təkcə rəsmi açıqlamalara əsasən, Ermənistan ordusunda 5 nəfər ölüb, 10 nəfər müxtəlif dərəcəli xəsarətlər alıb. Bunu Ermənistanın elektron informasiya portalı planetaarmenia.ru saytı yazır.***

Planetaarmenia.ru saytına istinadən, Ermənistan hakimiyyəti bütün üsullardan istifadə edərək ordudakı neqativ halları və ölüm faktlarını gizlədir. Hətta bunu hüquqi cəhətdən rəsmiləşdirməyə və zor gücünə öz xeyrinə məhkəmə qərarlarının çıxarılmasına da nail olur.

"Lakin bütün bu qadağalara baxmayaraq, sosial şəbəkələrdə və açıq mənbələrdə yayılan məlumatların təhlili göstərir ki, ordumuzda vəziyyət bizim təsəvvür etdiyimizdən də qat-qat acınacaqlı, ağır və ciddidir. Ordudakı ədalətsizliyin, aclığın, səfalətin və digər neqativ halların qurbanları fiziki və psixoloji cəhətdən zəif, düşdüyü mühitə uyğunlaşa bilməyən gənc əsgərlərdir. Bu vəziyyətdən yeganə çıxış yolunu isə onlar intiharda, özlərinə müxtəlif bədən xəsarətləri yetirməklə xidmətdən boyun qaçırmaqda görürlər", - deyə planetaarmenia.ru yazır.

Sayt Ermənistan ordusundakı acınacaqlı vəziyyətə dair bəzi misallar göstərir. Məsələn, "Ermənistandan hərbi xidmətə çağırılan zabit, Levon adlı taqım komandiri içki məclisində Qarabağda xidmətin dözülməzliyi mövzusunda mübahisə zamanı yerli erməniləri və yezidi kürd hərbçini təhqir etdiyi üçün kütləvi dava düşüb. Nəticədə ciddi xəsarətlər alan bir neçə nəfər Stepanakert hərbi hospitalına çatdırılıb. Levona isə həkimlər burun və bir neçə qabırğa sınığı diaqnozu qoyublar. Kütləvi davanın digər iştirakçıları isə Yerevandan gələn təhqiqat qrupunun üzvlərinə cavab verməli olacaqlar. Çünki artıq Ermənistanda yerli-qarabağlı prokurorlara etibar etmirlər.

Daha bir fakt. Marelyan soyadlı hərbçi tərəfindən amansızcasına döyülən Arman Rambelyan ağır vəziyyətdə hərbi hissənin tibb məntəqəsinə çatdırılıb.

Dağlıq Qarabağdan olan erməni komandiri Xron Qulyan tərəfindən şəxsi heyət qarşısında döyülən ermənistanlı Yerem adlı hərbi qulluqçunun da səhhətində ciddi problemlər aşkarlanıb.

Albert Saakyan adlı əsgər isə Qarabağ erməniləri tərəfindən təhqirlər ucbatından altı yerdən damarlarını kəsərək intihara cəhd göstərib. Digər iki hərbçi - kəşfiyyatçı Arkadi Matevosyan və əsgər Levon Akopcanyan da təhqirlərə və alçaldılmaya tab gətirməyərək xidmət yerlərini özbaşına tərk ediblər.

Saytın yaydığı xəbərə görə, martın 14-də Noyemberyan rayonu ərazisində yerləşən hərbi hissələrin birində əsgərin ölümü qeydə alınıb. Aravot.am saytının yaydığı xəbərə görə, əsgər Kamo Martirosyan məhz özünəqəsd nəticəsində dünyasını dəyişib. Amma ölüm hadisəsi çox mənasız və sadə səbəbdən baş verib. Yemək zamanı bir banka "tuşonka"nı (qablaşdırılmış ət) əsgərlər və komandirlər arasında bölə bilmədikləri üçün təhqirlərdən bezən əsgər avtomat silahdan atəş açaraq özünü öldürüb."

Aravot.am saytı daha sonra yazır: "Ermənistan hakimiyyətinin qadağalarına baxmayaraq, sızan məlumatlara əsasən, belə bir sadə nəticəyə gəlmək olar ki, ordumuzda xidmətdən yayınma məqsədilə özünə xəsarət yetirmə adi hadisə, sui-qəsd isə təbii haldır. Amma narahatçılıq doğuran daha bir hal əsgərlər arasında panikadır. Ordumuzda vəziyyət hətta o yerə çatıb ki, hərbçilər qorxudan tez-tez cəbhə xəttinin sağ və sol cinahlarında olan öz mövqelərimizi də düşmənlə səhv salaraq atəşə tuturlar".

**"Azərbaycan Ordusu"**

**P.S.** *Martın 15-də Ermənistan Müdafiə Nazirliyinin əməkdaşı Arsen Qəribcanyan külli miqdarda rüşvət alarkən hərbi polisin xüsusi əməliyyat xidməti tərəfindən saxlanılıb. Necə deyərlər, əlavə şərhə ehtiyac yoxdur.*

# Xəbərlər: hadisələr, faktlar

## İsveçdə hərbi cinayətlərdə şübhəli bilinən Suriya vətəndaşı həbs edilib



İsveç təhlükəsizlik xidmətinin nümayəndələri hərbi cinayətlərin törədilməsində şübhəli bilinən Suriya vətəndaşını həbs edib.

İsveç KİV-ləri bu işi aparan prokurora istinadən xəbər verir ki, həmin şəxs beynəlxalq qanunvericiliyi pozan və 2012-ci ildə Suriyanın İdlib şəhərində törədilmiş cinayətlərə görə həbs olunub.

Mətbuata sızan məlumata görə, bu işin 45 yaşlı fiqurantı Suriya hakimiyyət orqanlarına loyal olan yeddi hərbi qulluqçunun açıq edamının videoçəkilişində iştirak edib.

## Fransada terror təhlükəsi artır



Hazırda Fransada terror təhlükəsi 2015-ci il noyabrın 13-də baş verən hücum öncəsindən daha yüksəkdir və ölkə hökuməti maksimal hazırlıq vəziyyətində olmalıdır. Bu barədə martın 15-də Fransanın Baş naziri Manuel Vals bildirib.

Baş nazirin sözlərinə görə, fransalı siyasətçilər fövqəladə vəziyyət rejimi ilə bağlı respublika konstitusiyasına düzəlişlərin həyata keçirilməsi üçün əlindən gələn hər şeyi etməlidir. Hazırda parlamentdə qanun layihəsi ilə bağlı müzakirələr davam edir. Layihədə mübahisə doğuran əsas məqam terror fəaliyyətində iştirak edən şəxslərin Fransa vətəndaşlığından məhrum olunması tələbidir.

## Pakistan məhkəməsi sabiq prezident Pərviz Müşərrəfə müalicə alması üçün xaricə getməyə icazə verib



Pakistan məhkəməsi sabiq prezident Pərviz Müşərrəfə müalicə alması üçün xaricə getməyə icazə verib.

Bundan əvvəl sabiq prezident haqqında bir neçə maddə ilə cinayət işi qaldırıldığı üçün Pakistan hökuməti onun ölkədən çıxmasını qadağan etmişdi.

## Çexiyanın Hitler Almaniyası tərəfindən işğal edilməsindən 77 il keçir



Vermaxtın nasist ordusu 77 il əvvəl Çexiya və Moraviyanın ərazisini işğal edib. Hücumdan bir gün sonra Hitlerin göstərişinə əsasən Bohemiya və Moraviya protektoratlığı yaradılıb. Dövlətin taleyi Berlində keçirilmiş iclasda həll edilib. Həmin iclasda Prezident Emil Qaxa, xarici işlər naziri Emil Xvalovski və nasist Almaniyasının nümayəndələri iştirak ediblər. Gecə iclasında Praqanın bombalanacağına dair təhdidlər səsləndirilib və Emil Qaxa təzyiqlər qarşısında Çex xalqının taleyini nasist rəhbərinə tapşıran qərarı imzalayıb. Ordu kapitulyasiyaya çağırılıb və insanlara təmkinli olmaq tövsiyə edilib. Bilərəkdən gecikən Emil Qaxa Praqaya qatarla axşam çatıb. Praqa qradında onu Hitler qarşılayıb.

Almaniya Bohemiya və Moraviyanı işğal etməklə İkinci Dünya müharibəsi vaxtı ona xidmət edən güclü sənaye bazası qazanıb.

## Sinqapur 3-cü ildir dünyanın ən bahalı şəhəri olaraq qalır



Sinqapur üçüncü ildir ki, yaşayış üçün ən bahalı şəhər olaraq qalır. Bu, Britaniyanın "The Economist" jurnalının analitik bölməsi tərəfindən aparılan tədqiqat nəticəsində müəyyənləşib.

Ötən il 2 pillə irəliləyərək ikinci mövqedə qərarlaşan Sürix və 7 pillə irəliləyərək üçüncü yeri tutan Honkonq, demək olar ki, Sinqapura çatmaq üzrədir. İlk beşliyə, həmçinin Cenevrə və Paris də daxildir.

**AZƏRTAC-ın materialları əsasında**



*“Əsgərə məktub”*

# Məktəblilərin Vətən sevgisi

Bu günlərdə cəbhə bölgəsində ezamiyyətdə olarkən maraqlı bir ənənə diqqətimi çəkdi. Düşmənlə təmas xəttində yerləşən hərbi hissənin əsgərləri ilə Füzuli rayonunun orta məktəb şagirdləri arasında məktublaşma hər kəsdə xoş ovqat yaradıb.

Zabit Seymur Həbibullahov bildirdi ki, rayonun müəllim-şagird kollektivi dövlət bayramlarında, hərbi hissədə "Açıq qapı" günlərində və başqa tədbirlərdə müntəzəm iştirak edir. "Şagirdlərin hərbi hissədə olmaları olduqca təqdirəlayiq haldır. Gələcəyin Vətən müdafiəçilərinin döyüş texnikaları və silahlarla yerində tanış olmaları həm də onlarda hərbi peşəyə maraq oyadır", - deyir zabit.

Bu cür görüşlərin daha dərin xarakter aldığını bildirən zabit qeyd edir ki, hazırda "Əsgərə məktub" layihəsinin uğurla davam etməsi həm biz hərbçiləri, həm də məktəbliləri sevindirir.

Füzuli rayon təhsil şöbəsinin metodisti, tarix müəllimi Fazil Məhərrəmova görə, Vətənin keşiyində dayanan əsgərə diqqət, qayğı göstərmək hər bir vətəndaşın borcudur. "Rayonumuz ermənilərin işğalı altındadır. Bunun ağrısını, acısını bu gün də yaşayırıq, amma ümid edirik ki, Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev nə vaxt əmr edərsə, biz də mənfur erməniləri doğma torpaqlarımızdan çıxarmaq üçün əsgərlərimizlə döyüşə gedəcəyik." Əsgər-şagird məktublaşmasına gəlincə, Fazil müəllim də bunu təqdirəlayiq hadisə hesab edir. Deyir ki, ölkəmizin müxtəlif bölgələrindən olan gənclərlə ünsiyyət qurmaq məktəblilərdə dostluq, qardaşlıq kimi mənəvi keyfiyyətlərin möhkəmlənməsinə zəmin yaradan amildir.

Hərbi hissə ilə sıx təmasda bayram tədbirlərində daha fəallığı ilə seçilən Horadiz şəhəri Firudin Mehdiyev adına 2 saylı və şəhid Əkrəm Səlimov adına Kərimbəyli kənd orta məktəblərini misal göstərmək olar. Zabit S.Həbibullahov və bir qrup hərbçi ilə birgə Firudin Mehdiyev adına 2 saylı orta məktəbdə olduq. Hərbi qulluqçular özləri ilə əsgərlərin şagirdlərə cavab məktublarını da gətirmişdilər. Bundan başqa, hərbi mövzuda kitab, jurnal və qəzetlər də məktəblilərə hədiyyə kimi paylandı. Məktəbin direktoru, təcrübəli pedaqoq Ləman Əliyeva rəhbərlik etdiyi kollektiv adından hərbçilərə təşəkkür etdi. Qarşıdan bahar bayramı gəldiyini və bu münasibətlə Novruz hədiyyələri ilə gənc döyüşçülərin görüşünə gedəcəklərini bildirdi.



"Əsgərə məktub" müsabiqəsinə gəlincə, Ləman xanım bildirdi ki, ikinci sinif şagirdi Nübar Əliyevanın məktubu daha təsirli olub. Belə ki, balaca Nübar qardaşı olmasa da, düşmənlə üz-üzə dayanan hər bir əsgərin ona qardaşı qədər əziz olduğunu məktubunda ifadə edib və əsgərlərə tezliklə düşmənə qalib gəlmələrini arzulayıb.

Kərimbəyli kənd Əkrəm Səlimov adına orta məktəbinə də baş çəkən hərbçilər "Azərbaycanın Milli Qəhrəmanları" guşəsini və dövlətimizin atributları əks olunan lövhəni direktor Rəvan Cəfərzadəyə təqdim etdilər. Zabit S.Həbibullahov bildirdi ki, hərbçilərlə daim əlaqə saxlayan bu məktəbin kollektivi bayramlarda və digər tədbirlərimizdə hərbi hissədə olur.

Məktəb direktoru Rəvan Cəfərzadəyə görə, gərək ön cəbhədə xidmət edən əsgərlər hiss etsinlər ki, onlar tək deyillər, həmişə onlara arxa, dayaq olacaq insanlar var. "Vətənimizi yadelli işğalçılardan qorumaq, erməni tapdağı altında qalan torpaqlarımızı azad etmək üçün biz də öz gücümüzlə hər an Ali Baş Komandanın əmrini yerinə yetirməyə hazırıq."

Cəbhə bölgəsində hərbçilər və məktəblilər arasında yaranan bu həmrəylik, məncə, hər kəsin ürəyincədir. Çünki bu birlik bütöv Azərbaycanımıza və onun parlaq gələcəyi naminə təşkil olunub. Ümid edirik ki, bu gün parta arxasında əyləşən gənclərimiz sabahın bacarıqlı, qətiyyətli müdafiəçiləri olacaqlar.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Ovqat*




*Dövlətin ərazi bütövlüyünə təcavüz ediləndə oğullar atlanardı, qılınc qurşayardı, silahlanardı...*

Min illərdi müharibə başlayanda döyüşlərə gedən sevdalılar uğur üstə "Gözlə məni..." deyib könül verib könül aldığı qıza. "Gözlə məni..." deyib, ümid verib, ümid alıb. İnamla, ümidlə, ata-ana xeyir-duasıyla gedib müharibəyə. O gün əli sevdasının əlini isidib....

Şirzad Əliyev şair idi.

Bir sevda yaşayırdı. Kimsənin xəbəri olmayan sevdaydı bu sevda. İki ömrə yaz yağışı misallı sevdaydı. İki ömrü isidən ocağıydı, iki ömrün yolunu işıqlandıran çırağıydı. Ay işığı gecənin köynəyinin qara ilmələrini sökəndə könül verib könül aldığı qıza bir vərəq vermişdi. Şeir idi. Şeir həm də ona görə Tanrı möcüzəsidi ki, deyə bilmədiklərini sözə çevirirsən, bu sözlərin bənzərsiz düzülüşü səninlə mətləb açmaq istədiyinin dilmancı olur. Bir nəfərə yazılır, minlərin könlünə yatır. Şirzadın şeiri təmənnaya söykənmişdi: Gözlə məni. Şeir belə də adlandırılmışdı. O gecə göylərə şam bildiyimiz Ayın şöləsi bir ayrı biçimiydi və bu sevdanı yad nəzərlərdən gizlədən gecənin yaxasından yapışıb dan yerinə çəkirdi; gecə uzandıqca uzanırdı. O bir vərəq dan yeri söküləndə oxunacaqdı və bir vərəqə sığışdırılan sevda üverturası illərlə yaşayacaqdı...

Vətən naminə döyüşə gedən ümidlə gedir. Vətən sevgisinin, bir də sevdasının xeyir-duasıyla.

"Gözlə məni". Şeirə Süleyman Ələsgərovun bəstələdiyi mahnı 72 ildi dinləyənin könül dünyasının şəriksiz sultanlarındandı...

*Yenə düşdün yadıma,*
*Sən ey ismətli dilbər.*
*Alışıb od içində*
*Yanıram axşam-səhər.*

Uzaqlarda döyüşlərdə "od içində" olan döyüşçünün ürək çırpıntıları seziləndi. Kövrək misralar ürək döyüntülərinin söz şəklində görüntüsüdü. Ancaq hiss edilən inam var misralarda: İlqarımdan dönməyəcəm.

*İlqarından dönənə*
*Qəlbi dönükdür deyirlər,*

misraları şairin sevdasında "sabitqədəm" olduğunu göstərir və sevdasının ünvanını əmin edir ki, mən belə olmaram, olmayacam. Qələbədən sonra qayıdacam.

*Mən sənə söz demişəm,*
*Sevgilim, gözlə məni.*

"Nə hicran çək, nə də qəm...", yollara ümidlə bax, ümidini üzmə.

Ümid yaşam fəlsəfəsinin tərkib hissələrindən biri olub. İsa Hüseynovun "Saz" povestində ("Tütək səsi" bədii filmində) ümidin nə olduğu böyük sənətkarlıqla açılıb: poçtalyon qız (Milli) oğul, ər, nişanlı yolu gözləyənlərin ümidlə yaşaması üçün cəbhədən gələn "qara kağızları" gizlədir. İsfəndiyar kişi üz vurmasa, son nəfəsinəcən bu gizlinci açmazdı. Gizlin açılanda, ümid qırılanda bənzərsiz "Ruhani" yaranır. "Gözlə məni"də də ümidə çağırış var:

*Vidalaşıb gəldiyim*
*Bulaqda gözlə məni...*

Bulaq atributu istər folklorumuzda, istərsə də xalqımızın adət-ənənəsində dəyər verilən məkandır; Bulaq (su) duruluq rəmzi olduğuna görəmi, kənd yerlərində oğlanın qızı görməsi üçün yeganə diqqət çəkməyən məkan olduğuna görəmi? Aşıq Ələsgər "çeşmə başında" gördüyü qızı vəsf eləmişdi, Tufarqanlı Abbas da, Xəstə Qasım da, ...

Zəlimxan Yaqub duyğusal şeirlərindən birini "bulaq üstə tələsən gözələ" yazmışdı...

Şirzad məhz bu məqama görə "vidalaşıb gəldiyim bulaqda gözlə məni" deyir. Kəndə gələnləri ilkin olaraq bulaq başında olanlar görür. "Mənim gəlişimi hamıdan əvvəl sən gör" istəyiylə yazılıb bu kəlmələr...

"Gözlə məni" bütün sevdalıların şeiridi...

"Gözlə məni" istər poetik məzmunu, istər ideyası ilə həmişə oxuyanların duyğularını titrədib. Bu titrəyiş arzulanan titrəyişiydi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xarici hərbi xronika

## Boş qüllənin sirri



Müasir hərbi əməliyyatlarda piyada döyüş maşınlarına və zirehli transportyorlara geniş yer verilir. Şəxsi heyətin itkisinin qarşısını almaq məqsədilə distansion-idarəolunan qüllə modulları hazırlanıb. Praktiki olaraq müasir döyüş maşınlarının qülləsi pulemyot-qumbaraatanla silahlanır. Bir sıra yerli müəssisələr dünya tendensiyalarına uyğun müasir qüllələrin hazırlanması ilə məşğul olur. Yerli mühəndislər tərəfindən bu məqsədlə bir sıra texnoloji təkliflər irəli sürülüb. Hazırda kəşfiyyat imkanlarını artırmaq məqsədilə döyüş maşınları üçün distansion idarə olunan yüngül qüllə modullarının inkişaf tendensiyasını müəyyən edir. Müxtəlif optoelektron nişangahla təchiz olunmuş döyüş modulları heyəti kəşfiyyat məlumatlarının əldə edilməsində və lazımi şəbəkələrə ötürülməsində əsas rol oynayacaq. Yeni texnologiyalar 105 və 120 mm-lik tank toplarının 25 tonluq döyüş maşınlarına quraşdırılmasına imkan verəcək.



## Robotlaşdırılmış bölük

Möhkəmləndirilmiş müdafiə hücumu zamanı itkilərin minimum həddə çatdırılması məqsədilə mütləq robotlaşdırılmış bölük yaratmaq lazımdır. Bu bölüyün tərkibi piyada döyüş maşınından əlavə, distansion idarə olunan döyüş robotlarından ibarət olmalıdır. Ən sadə robotlaşdırılmış döyüş maşını radio kanalının və kabelin köməyi ilə operator tərəfindən distansion olaraq idarə edilir. Rusiyada T-72 tankının bazası əsasında eksperimental texniki-robot kompleksi hazırlanıb. Və bir-iki kilometrlik məsafədən distansion idarə olunur. Robotlaşdırılmış bölüyü tez bir zamanda yaratmaq olar. Bu məqsədlə hücum maşınlarını T-72, T-80-lərin modernləşdirilməsi əsasında hazırlamaq olar. Bununla onların döyüş bölməsini də yeniləri ilə əvəz etmək lazımdır. Bu da 13 kilometrlik məsafədə yerləşən düşmənə qarşı mübarizə aparmağa imkan verəcək. Zirehli döyüş maşınları gizli və açıq mövqelərdə olan hədəfləri məhv etməyə qadir olacaq.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

Baş leytenant Qəniyev Ravil Əzim oğluna 2015-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi, sürücülük vəsiqəsi, sosial-sığorta və əmək haqqı kartları itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 140
Nüsxə 4700